BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2011*

UOT 82.0

# FARS ƏLİFBASININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**C.N.MƏMMƏDZADƏ**
***Bakı Dövlət Universiteti***
***mhjavanshir @ mail.ru***

*Məqalədə müasir fars əlifbasının əsas səciyyəvi xüsusiyyətləri araşdırılmışdır. Əlifbadakı hərflərin sayı, yerləşmə ardıcıllığı, onların ifadə etdiyi səslər, qrafik işarələrin oxşar və fərqli cəhətləri kimi məsələlər elmi şəkildə tədqiq olunmuşdur. Fars əlifbasındakı qrafik işarələr quruluş və formasına, əmələ gəlmə üsuluna görə təsnifatlandırılmışdır. Həmçinin İranda tarixən istifadə olunmuş yazı sistemləri barədə məlumat verilmişdir. Məsələ ilə əlaqədar digər tədqiqatçıların fikirləri də ətraflı öyrənilmişdir.*

**Açar sözlər:** Fars əlifbası, hərflər, səslər, qrafik forma, yazı şəkli

Əlifbanın və əlifba yazısının meydana gəlməsi dünyanın yaranışından bəri bəşəriyyətin nail olduğu ən böyük şahanə uğurlardandır. İnsanlar arasında daha əhatəli və mükəmməl bir ünsiyyətin gerçəkləşməsinə xidmət edən bu kəşf dünyanın qədim xalqlarının adı ilə sıx surətdə bağlıdır. Əlifbanın əmələ gəlməsi haqqında müxtəlif fikirlər mövcuddur. Alimlərin bir qismi misirliləri, bəzisi minoyları, digəri isə finikiyalıları əlifbanın yaradıcısı sayırlar (3, 221). Əlifbanın və əlifba yazısının yaranmasında və təkmilləşməsində Aralıq dənizinin Şərq sahillərində məskunlaşmış qədim finikiyalıların adı və rolu daim xüsusi vurğulanır.

Görkəmli İran alimi Məliküşşüəra Bahar qədim əfsanə və kitablara istinadən yazının İranın qədim şahlarına divlər tərəfindən öyrədildiyini qeyd edir (5, 88). İranlılar ilk dəfə assurların tabeliyində olduğu zaman assur xətti-mixi yazı ilə tanış olmuşlar. Əhəmənilərin hakimiyyəti dövründə milli xətt kimi bütün ərazilərdə geniş yayılmış mixi yazı qədim farslar tərəfindən sadələşdirilmiş və təkmilləşdirilmişdir. Qədim farslar mixi yazı sistemində assur-babil yazısından istifadə edərək fonetik prinsipi tətbiq etmişlər. Farslar yazı üçün assur-babillərin işarələrinin hamısını deyil, bunlardan ancaq bəzi işarələri seçib hərf kimi işlətmişlər (3, 193). Onlar heca şəkilli mixi yazını əlifba şəklinə salmışlar (5, 97). Zaman ötdükcə mixi yazının çətinliyi və mürəkkəbliyi onun getdikcə aradan çıxmasına səbəb olmuşdur. Hətta

Əşkanilər zamanında farslar bir müddət yunan xəttindən də istifadə etmişlər (5, 98).

Sasanilərin hakimiyyəti dövründə İranda pəhləvi əlifbasından istifadə olunmuşdur. Yeddinci əsrdə ərəblərin İranı istilası və Sasanilər imperiyasının süqutu ilə əlaqədar olaraq pəhləvi (orta fars) dili və yazısı işləklikdən düşdü.

M.Bahar pəhləvi yazısının ərəb əlifbasından qat-qat çətin və yoxsul olduğunu qeyd edirdi (4, 153). Bundan əlavə yazı və oxu üçün bir o qədər də əlverişli olmayan pəhləvi yazısı İslamdan sonra əsasən zərdüştlük dininin kahinlərinin ixtiyarına keçdi və sürətlə öz əhəmiyyətini itirdi. Pəhləvi əlifbası müəyyən dəyişikliklər edilməklə ərəb əlifbası ilə əvəzləndi. Ərəb əlifbası Şərqdə finikiya əlifbasından meydana gəlmiş arami əlifbasından törənmişdir. Ərəb əlifbasının kökü qədim finikiyalıların müəllifi olduqları finikiya əlifbasına gedib çıxır. Saitlərin deyil, yalnız samitlərin verildiyi finikiya yazısı da üfüqi şəkildə sağdan sola istiqamətli idi. Beləliklə, ərəb əlifbası əsasında yeni fars əlifbası yarandı. Lakin ərəb əlifbası fars dilinin səs sistemini tam surətdə əks etdirə bilmirdi. Bu səbəbdən iyirmi səkkiz hərfdən ibarət olan ərəb əlifbasına fars dilinə məxsus p (pe), j (je), ç (çe), g (qaf) samitlərinin əlavə olunması ilə fars əlifbası qəbul edildi. Həmin hərflər tələffüz məxrəcinə və qrafik şəklinə görə yaxın olan ərəb qrafemlərinə müəyyən diakritik işarələrin (nöqtə və «sərkeş»in) artırılması yolu ilə əmələ gəlmişdir. Məsələn, ب (be) → پ (pe), ز (ze) → ژ (je), ج (cim) → چ (çe), ک (kaf) → گ (qaf).

Fars əlifbası otuz iki hərfdən ibarətdir. Əlifbada hərflər müəyyən qayda əsasında ardıcıl sıralanmışdır. Burada hərflərin yeri və sırası dəyişməzdir. Hərflərin sırası əsasən onların qrafik şəklinə uyğun müəyyənləşdirilmişdir. İndi hərflərin sırasının heç bir məntiqi əsası yoxdur. Əlifbada hərflərin sırasının yazı ilə birbaşa əlaqəsi yoxdur: o, özlüyündə nə hərflərin mənasını, nə də onların işlədilmə qaydasını müəyyən edir. Hərflərin ardıcıl sıralanması sadəcə olaraq ənənəyə görədir (3, 210). Hər hərfin əlifbada öz xüsusi adı vardır. Qədim yazılardakı hər bir işarə (hərf) təbiətdə mövcud olan canlı və cansız əşyalara bənzədilərək yaradılmış və həmin əşyanın adı ilə adlandırılmışdır (3, 217). Məsələn, Cim-[c]-hərfi «dəvə»yə, şin-[ş]- hərfi «diş»ə, eyn hərfi «göz»ə, fe -[f]- hərfi «ağız»a, lam -[l]- hərfi «çoban çomağı»na, ye -[ye]- hərfi «əl»ə bənzədilərək yaradılmışdır. Başqa sözlə, cim «dəvə», şin «diş», eyn «göz» və s. deməkdir (5, 106).

Fars əlifbasında qrafik cəhətdən oxşar olan hərflərin adı ifadə etdiyi səslərə uyğun olaraq dəyişir. Daha doğrusu, diakritik işarələr qrafik bənzərliyi olan hərflərin adını və ifadə etdiyi səsləri fərqləndirir. Məsələn, ج (cim)- [c], چ (çe)- [ç], ح (he)- [h], خ (xe)-[x]. Əlifbada on beş hərfin adı samitlərlə [e] və [a] saitlərinin birləşməsi ilə oxunur. Məsələn, be, pe, te, se, çe, he, xe, re, ze, je, fe, ye, ta, za, ha. Fars əlifbasında hərflərin adı ilə onların ifadə etdiyi səs arasında fərq vardır. Hərf səslərin yazıda qrafik cəhətdən təzahür şəklidir. Səs deyilir və eşidilir, hərf isə yazılır və görülür. Səs tələffüzlə, hərf isə yazı ilə əlaqədardır. Fars dilinin səsləri ilə əlifbadakı hərflərin sayı bərabər deyildir.

Bu dildə səslərin kəmiyyəti hərflərin sayından azdır. Fars dilində 24 samit səsin 30 qrafik işarəsi vardır.

Fars əlifbası ilə yazının və oxunun istiqaməti sağdan sola doğrudur. Rəqəmlər isə əksinə, soldan sağa doğru yazılır və oxunur. Fars əlifbası fonetik deyil, sillabik əlifbadır. Bu əlifba əsasən konsonant yazı tipi üçün səciyyəvidir. Samit səslərin yazıda öz əksini tapması daha geniş hal almışdır. Hər bir samitin öz müstəqil hərfi işarəsi mövcuddur. Altı sait səsin isə heç birinin bilavasitə özünəməxsus xüsusi şəkli əlaməti yoxdur.

Fars əlifbasındakı hərflər sadə və mürəkkəb quruluşludur. Hərflərin sadə və ya mürəkkəb quruluşa malik olması onların zahiri şəklinə əsasən müəyyən olunur. Sadə quruluşlu hərflər zahirən bəsit görünüşə malikdir. Məsələn, ا (əlef), ح(he), د (dal), ر(re), س(sin), ع(eyn), ل (lam), م(mim), و(vav), ه (ha), ی (ye). Tərkibində diakritik işarələrin işləndiyi hərflər quruluşca mürəkkəbdir. Məsələn, ب (be), پ (pe), ت(te), ث (se), ج(cim), چ (çe), ح (he), خ (xe), ذ(zal), ز (ze), ژ (je), ش (şin), ص (sad), ض(zad), ط (ta), ظ(za), غ (ğeyn), ف (fe), ق(ğaf), ک(kaf), گ(qaf), ن (nun).

Fars əlifbasındakı hərflərin çoxu məhz mürəkkəb quruluşludur.

Fars əlifbasındakı bütün hərflər formaca çap və yazı şəklinə malik deyildir. Yalnız ج (cim), چ (çe), ح (he), خ (xe), س (sin), ش (şin), ه (ha) hərflərinin çap şəkli ilə yanaşı yazı şəkilləri də vardır. Əl yazısında və nəstəliq xəttində bu hərflərin əsasən yazı şəklindən istifadə olunur.

Fars əlifbasında hərflər müxtəlif həndəsi şəkillidir. Hərflərin bəzisi tək halda yuxarıdan aşağıya (ل - گ - ک - غ - ع - ا), bəzisi isə soldan sağa ( ح - چ - ج ظ - ط - ض ص - خ -) doğru yazılır. Fars əlifbasındakı hərflər əsasən düz xətt və yarım oval işarələrindən yaranmışdır. Həmin ünsürlərin iştirakına görə əlifbadakı qrafik işarələr əmələ gəlmə baxımından üç qrupa bölünür:

1) Düz xəttin sağdan sola doğru üfüqi və şaquli istiqamətdə çəkilməsi ilə yaranmış hərflər: ا (əlef), ب (be), پ(pe), ت(te), ث (se), ک (kaf), گ(qaf).

2) Yarım ovaldan əmələ gəlmiş hərflər: د(dal), ذ(zal), ر (re), ز(ze), ژ (je), ع (eyn), غ (ğeyn), ق(ğaf), ن (nun), و(vav), ه(ha), ی (ye).

3) Düz xətt və yarım ovalın birləşməsindən meydana gəlmiş hərflər: ج (cim), چ (çe), ح (he), خ (xe), س(sin), ش (şin), ص (sad), ض(zad), ط(ta), ظ(za), ف(fe),

ل (lam),م (mim).

Fars dilində hərflər həcmcə böyük və kiçik formaya malik deyildir. Əlifbada baş hərflər olmadığından sözlərin böyük və ya kiçik hərflə yazılması kimi xüsusi orfoqrafik qayda yoxdur.

Fars əlifbasında qrafik cəhətdən oxşar olan hərflər qrafemin üstündə və ya altında qoyulan nöqtələrin yerinə və sayına görə bir-birindən seçilir. Məsələn, nöqtələrin yerinə və sayına görə biri digərindən fərqlənən ب (be), پ (pe), ت (te) və ث (se) hərfləri eyni qrafik işarə - ٮ əsasında formalaşmışdır. Yaxud da ر (re) hərfinin üstündə bir nöqtənin qoyulması ilə [z] səsini ifadə edən ز (ze), üç nöqtənin qoyulması ilə isə [j] səsini bildirən ژ (je) hərfi əmələ

gəlmişdir. Fars əlifbasında yeganə [q] və [g] səslərini ifadə edən گ(qaf) hərfi [k] səsini ifadə edən ک (kaf) hərfinin üzərinə ikinci bir «sərkeş» adlanan işarənin əlavə olunması ilə yaranmışdır. Əlifbada «sərkeş»li yalnız iki hərf mövcuddur.

Qrafemin üstündə və ya altında qoyulan nöqtələrin sayına və «sərkeş»ə görə formalaşmış 23 hərf əslində 9 əsas qrafik işarə əsasında təşəkkül tapmışdır. Başqa sözlə, 22 hərf 8 qrafik işarənin üzərində nöqtələrin vəziyyətinə, bir hərf isə «sərkeş»in işlənməsinə görə əmələ gəlmişdir. Əsas qrafik işarələr və onların əsasında formalaşmış hərflər aşağıdakı cədvəldə əyani şəkildə göstərilmişdir:

| Sayı | Qrafik işarə | Formalaşmış hərflər |
|---|---|---|
| 1. | ب (be) | پ (pe) - ت (te) - ث (se) |
| 2. | ح (he) | ج(cim) – چ (çe) – خ (xe) |
| 3. | د (dal) | ذ (zal) |
| 4. | ر (re) | ز (ze) - ژ (je) |
| 5. | س (sin) | ش (şin) |
| 6. | ص (sad) | ض (zad) |
| 7. | ط (ta) | ظ (za) |
| 8. | ع (eyn) | غ (ğeyn) |
| 9. | ک (kaf) | گ (qaf) |

Doqquz əsas qrafik işarənin adı ilə onların əsasında yaranmış digər hərflərin adı ifadə etdikləri səslərə müvafiq olaraq dəyişir.

Fars əlifbasında on yeddi nöqtəli hərf var. Nöqtələrin yerinə görə hərflər iki qismə ayrılır:

1. Üstdən nöqtələnən hərflər- Bu hərflərin sayı on üçdür: ت(te), ث (se), خ (xe),ذ (zal), ز(ze), ژ(je), ش(şin), ظ(za), ض(zad), ف(fe), ق(ğaf), غ(ğeyn), ن (nun).

2. Altdan nöqtələnən hərflər- sayca dörddür: ب (be), پ(pe), ج(cim), چ (çe).

Nöqtələrin sayına görə isə hərflər üç qrupa bölünür:

1. Bir nöqtəli hərflər- say etibarilə ondur: ب (be), ج(cim), خ (xe), ذ(zal), ز(ze), ض (zad), ظ (za), ف(fe), غ (ğeyn), ن(nun).

2. İki nöqtəli hərflər- sayca ikidir: ت (te) və ق (ğaf).

3. Üç nöqtəli hərflər- bunların sayı beşdir: پ(pe), ث (se), چ (çe), ژ (je), ش (şin).

Fars əlifbasında on beş hərf nöqtəsizdir: ا (əlef), ح (he), د(dal),ر (re), س (sin), ص (sad), ط(ta), ک (kaf), گ(qaf), ع(eyn), ل (lam), م(mim), ه(ha), ی(ye), و (vav).

Fars dilində nöqtəli hərflərə حروف نقطه دار [horuf-e noğtedar] və ya حروف منقوطه[horuf-e mənğute], nöqtəsiz hərflərə isə حروف بی نقطه[horuf-e binoğte] və ya حروف منقوطه غیر [horuf-e ğeyr-e mənğute] deyilir.

Fars əlifbasındakı hərflərin bitişik və ayrı yazılması əsas orfoqrafik qaydalardandır. Hərflər bitişmə xüsusiyyətinə görə iki qrupa ayrılır:

a) Ayrı yazılan hərflər - Bu hərflər özündən sonra gələn qrafik işarə (hərf) ilə birləşmir. Əlifbada ayrı yazılan hərflərin sayı yeddidir. Həmin hərflər bunlardır: ا(əlef), د (dal), ذ (zal), ر (re), ز (ze), ژ (je), و (vav). Fars dilində bitişik yazılmayan hərflərə حروف منفصل[horuf-e monfəsel] və ya حروف پیوندناپذیر[horuf-e peyvəndnapəzir] deyilir.

b) Bitişik yazılan hərflər - Bu hərflər hər iki tərəfdən bitişik yazılır. Başqa sözlə, həm özündən əvvəl, həm də özündən sonra gələn hərflə birləşir. Fars əlifbasında bitişik yazılan hərflərin sayı iyirmi beşdir. Həmin hərflər حروف متصل [horuf-e mottəsel] və ya حروف پیوندپذیر[horuf-e peyvəndpəzir] adlanır.

Ayrı və bitişik yazılmasından irəli gələrək bir sıra hərflər söz tərkibində ayrılıqda və sözün sonunda olmaqla iki məqamda, əksər hərflər isə dörd məqamda, yəni birləşmənin əvvəlində, ortasında, sonunda və tək halda işlənir. Bu cəhətdən hərflər söz tərkibində işlənmə məqamından asılı olaraq bir, iki və dörd qrafik şəklə malik olur. Fars dilində bir qrafik şəkilli hərflərin sayı doqquz, iki qrafik şəkilli hərflərin sayı on altı, dörd qrafik şəkilli hərflərin sayı isə yeddidir.

Aşağıdakı cədvəldə hərflər qrafik şəklinə görə təsnifatlandırılmışdır:

| Bir qrafik şəkilli hərflər | İki qrafik şəkilli hərflər | Dörd qrafik şəkilli hərflər |
|---|---|---|
| ا (əlef) | ب (be), پ(pe), ت(te), ث (se) | ج (cim), چ (çe) |
| د (dal), ذ(zal) | س(sin), ش (şin), ص (sad), ض(zad) | ح (he), خ (xe) |
| ر (re), ز(ze), ژ (je) | ف (fe), ق(ğaf), ک(kaf), گ(qaf) | ع (eyn) |
| ط(ta), ظ (za), و (vav) | ل (lam), م(mim), ن (nun), ی(ye) | غ (ğeyn), ه(ha) |

Bitişmə xüsusiyyətinə görə bir qrafik şəkilli hərflər özündən sonra gələn hərflə birləşmir. Yalnız bu cəhətdən istisna olan ط(ta) və ظ (za) hərfləri isə hər iki tərəfdən bitişik yazılır. İki və dörd qrafik şəkilli hərflər isə özündən əvvəl və sonra gələn hərflərlə bitişir. Fars yazı xəttində hərf birləşmələrinin quruluşundan asılı olaraq sözləri hecalara bölüb sətirdən-sətrə keçirmək mümkün deyildir.

Fars əlifbasında bəzi hərflər sözün əvvəlində, ortasında, sonunda və tək halda yazılarkən öz yazılış şəklini müəyyən dərəcədə dəyişir. Məsələn, غ (ğeyn) hərfinin birləşmə daxilində yazılış formalarına diqqət yetirək:

| Hərfin adı | İfadə etdiyi səs | Birləşmənin sonunda | ortasında | əvvəlində | tək halda |
|---|---|---|---|---|---|
| ğeyn | ğ | ـغ | ـغـ | غـ | غ |
| | | تیغ- [tiğ] | جغد - [coğd] | غار - [ğar] | باغ- [bağ] |

Əslində hərflərin söz tərkibində öz yazılış formasını dəyişməsi zahiri xarakterlidir. Yalnız iki qrafik şəklə malik ی (ye) hərfi bu cəhətdən istisnadır. Bu hərf sözün əvvəlində və ortasında öz şəklini tamamilə dəyişərək müstəqil formasından fərqli şəkildə - ﻳ yazılır.

Fars əlifbasında müxtəlif qrafik şəklə malik olan bir neçə hərf eyni səsi ifadə edir. Başqa sözlə, fars dilində beş samit səs iki və daha artıq hərflə işarə olunur:

| Sıra | Səslər | Hərflər |
|---|---|---|
| 1. | s | ث(se), س (sin), ص (sad) |
| 2. | t | ت(te), ط(ta) |
| 3. | h | ح(he), ه (ha) |
| 4. | z | ذ (zal), ز(ze), ض(zad), ظ(za) |
| 5. | ğ | ق(ğaf), غ(ğeyn) |

Cədvəldən də göründüyü kimi, [t], [h] və [ğ] səslərinin hər biri iki, [s] səsi üç, [z] səsi isə dörd hərflə göstərilir. Ümumilikdə, beş samit səsin 13 qrafik işarəsi vardır. Fars dilində vahid səsi ifadə edən müxtəlif hərflərin fonetik xüsusiyyətləri, eləcə də tələffüz məxrəci eynidir. Yalnız hər bir hərf öz xüsusi adı ilə seçilir. Fars dilində bir neçə müxtəlif qrafik şəkilli hərfin eyni tələffüz məxrəcinə malik olması omofonların yaranmasına səbəb olur. Tərkibində t, h, s, z, ğ samitləri olan müxtəlif sözlərin hansı birinin ت (te) və ya ط (ta), ح (he) və ya ه (ha) ilə yazıldığını bilmək üçün başlıca olaraq həmin sözlərin yazılış qaydasını yadda saxlamaq lazımdır. Digər tərəfdən ث(se), ح (he), ص (sad), ض (zad), ط (ta), ظ(za) və ق(ğaf) hərfləri əsasən ərəb dilindən alınma sözlərdə işlənir.

Fars əlifbasında bəzi hərflər müxtəlif səsləri bildirir. Aşağıdakı cədvəldə həmin hərflər və onların ifadə etdikləri səslər verilmişdir.

| Sıra | Hərfin adı | İfadə etdiyi səslər |
|---|---|---|
| 1. | ا (əlef) | [a], [ə], [e], [o] |
| 2. | ک (kaf) | [k], [ќ] |
| 3. | گ (qaf) | [q], [g] |
| 4. | و (vav) | [v], [o], [u], [ou] |
| 5. | ی (ye) | [y], [i] |
| 6. | ه(ha) | [h], [e] |

Fars əlifbasında bir sıra hərflər həm sait, həm də samit səsi bildirir. Yuxarıdakı cədvəldən də bəlli olduğu kimi, məsələn, و (vav) hərfi [v] samiti ilə yanaşı [o], [u] saitlərini və [ou] diftonqunu, ی (ye) hərfi [y] samitini, [i] və bəzi ərəb sözlərində [a] saitini, ه (ha) hərfi [h] samitini, [e] və yalnız نه[nə] və مه[mə] kimi inkar bildirən sözlərdə müstəsna hal kimi [ə] saitini ifadə edir.

Fars əlifbasında bəzi hərflər konkret bir səsi bildirməyərək yalnız sait səsləri ifadə edir. ا (əlef) və ع (eyn) buna misaldır.

Fars əlifbasında bəzi hərflər yazılır, lakin oxunmur. Misal üçün, bir qrup sözdə خ(xe) hərfindən sonra yazılan و(vav) hərfi tələffüz olunmur. Məsələn, خواب [xab]-yuxu, خوان[xan]- süfrə, وخاهر [xahər]- bacı. Dilin orfoqrafik qaydalarına uyğun olaraq bəzi sözlərdə وخ (xv) hərf birləşməsindəki oxunmayanو (vav)

واو معدوله[vav-e mə’dule] adlanır.

## ƏDƏBİYYAT


1. Əlizadə H., Hatəmi N. Fars dili. Bakı: ADTPƏ, 1961, 482 s.
2. Gülkarzadə Ə. Fars xəttinin gözəl yazılış qaydaları. Bakı: Əlxuda, 1996, 96 s.
3. Həsənov H. Müasir Azərbaycan dilinin fonetikası. Bakı: Təfəkkür Universiteti, 2004, 306 s.
4. Məmmədov C. Fars dilində ərəb alınmaları (tarixi aspektdə) // Bakı
5. Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), 2006, № 4, s. 152-158.
6. Rüstəmova T. Fars dili. Bakı: Beynəlxalq Əlhuda nəşriyyatı (Bakı şöbəsi),
7. 2008, 396 s.
8. بهار محمدتقی ملک الشعرا. سبکشناسی، جلد اول. تهران: زوار، ۱۳۸۱، ۴۹۶ ص.
9. 7. دستور خط فارسی (مصوب فرهنگستان زبان و ادب فارسی). تهران: ۱۳۸۵، ۵۸ ص.
10. 8. دستور زبان فارسی (پنج استاد)/ عبدالعظیم قریب... و دیگران. تهران: ناهید، ۱۳۷۳، ۳۱۲ ص.
11. Yadollah S. Persian language teaching (elementary course), book 1. Tehran:
12. Alhoda, 1993, 240 p.
13. 10. Lazard G. Grammaire du Persan contemporain. Paris: Librairie C. Klincksieck,
14. II, 1957, 334 p.


## ОСОБЕННОСТИ ПЕРСИДСКОГО АЛФАВИТА


**Дж.Н.МАМЕДЗАДЕ**



**РЕЗЮМЕ**

В этой статье рассматриваются особенности персидского алфавита. Персидский алфавит, включающий 32 буквы, был создан на основе арабского алфавита. Согласно принятому правилу, местоположение букв в алфавите неизменно. Место букв в алфавите, в основном, определяется их графической формой. В персидском алфавите буквы имеют простое и сложное строение. Не все графические знаки имеют печатную и письменную форму. Буквы алфавита появились на основе прямолинейных и полуовальных знаков.

В персидском языке чтение и письмо осуществляется по направлению справа налево. Персидский алфавит не фонетический, а силлабический. Этот алфавит, в основном, характерен для консонантного типа письма.



**Ключевые слова:** персидский алфавит, буквы, звуки, графическая форма, письменная форма

# TYPICAL FEATURES OF THE PERSIAN ALPHABET

**J.N.MAMMADZADE**

**SUMMARY**

The typical features of the Persian alphabet have been investigated in this article. The Persian Alphabet consisting of thirty two letters has formed on the basis of the Arabian alphabet. In accordance with the defined rule the place and the order of the letters is unchanged. The order of the letters has mostly been defined suitably to their graphic forms. Letters of the Persian alphabet are of simple and complex structure. Not all graphic characters have types and writing forms. Letters in the alphabet are especially formed on the basis of straight line and half round signs.

The direction of writing and reading in the Persian alphabet is realized from the right to the left. The alphabet is mostly typical for the consonant type of writing. The Persian alphabet is not phonetic but syllabic.

**Key words:** Persian alphabet, letters, sounds, graphic form, writing form.